***Rüfət Zəbioğlu–90***

# Rüfət Zəbioğlunun satira yaradıcılığı

**Elmira Babayeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: elmirababayeva0791@gmail.com

**Annotasiya.** Məqalədə Azərbaycan ədəbiyyatının 60-cı illər nəslinə mənsub olan Rüfət Zəbioğlunun satirik poeziyası tədqiqata cəlb edilir. Ədəbiyyatımızda böyük təkamül yolu keçən satira janrı XX əsrin əvvəllərində Mirzə Ələkbər Sabirin, bütövlükdə, mollanəsrəddinçilərin yaradıcılığında tamamilə yeni bir status qazanmışdır. Şübhəsiz, “Molla Nəsrəddin” ədəbi məktəbinin satirada yaratdığı qeyri-adi üslub, ifadə tərzi, forma və məzmun yeniliyi satirik poeziyamızın sonrakı mərhələsinə güclü təsir göstərmiş və ədəbiyyatımızda satira janrının inkişafına təkan vermişdir. 60-cı illərdə ədəbiyyata gələn yeni qüvvələr arasında Rüfət Zəbioğlu öz dəsti-xətti, orijinal üslubu ilə satirik poeziyamızda seçilən imzalardan biri olmuşdur. Şairin zəngin və çoxşaxəli yaradıcılığında lirik mahiyyətli şeirləri ilə yanaşı, satirik şeirləri də mühüm əhəmiyyət kəsb edir. Rüfət Zəbioğlunun müxtəlif mövzuda qələmə aldığı satiralarında cəmiyyətdəki daxili və mənəvi aşınmalar, rüşvətxorluq, əliəyrilik, vəzifəpərəstlik, pulgirlik, ədalətsizlik, biganəlik kimi mənfi halların ifşası mühüm yer tutur. Tədqiqatda bütün bu məsələlərin təhlilinə geniş yer verilmişdir.
Bununla yanaşı, məqalədə Rüfət Zəbioğlu yaradıcılığının satirik ədəbiyyatımızın sonrakı inkişafına təsiri və çağdaş dövrümüz üçün aktuallığı diqqət mərkəzində saxlanılır.
**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, Rüfət Zəbioğlu, 60-cı illər satirik poeziyası, parodiya, klassik ənənə, folklor örnəkləri

**Məqalə tarixçəsi:** göndərilib – 05.10.2022; qəbul edilib – 14.10.2022

# Satirical creativity of Rufat Zabioglu

**Elmira Babayeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: elmirababayeva0791@gmail.com

**Abstract.** In the article, the satirical poetry by Rufat Zabioglu, a representative of the 60s generation in the Azerbaijani literature, is involved in the study. The genre of satire, having passed a long path of evolution in our literature, gained a completely new status at the beginning of the 20th century in the creative work of M.A.Sabir and in general of the Mollanasreddinist writers. Undoubtedly, unusual style, way of expression, novelty of form and content in the genre of satire created by the Molla Nasreddin literary school, had a strong influence on the subsequent period of satirical poetry and contributed to the development of this genre in our literature. Among the new representatives that appeared in the literature in the 60s, Rufat Zabioglu, with his unique style, took a special place in our satirical poetry. In the rich and multifaceted work of Rufat Zabioglu, in addition to his lyrical poems, a significant place is occupied by satiric poems on various topics, which denounce internal and moral vices, bribery, embezzlement, greed, self-interest, ambition,

vanity, injustice, indifference in society. In the study, a significant place is given to the analysis of these issues.
In addition, the focus of the article is on the influence of Rufat Zabioglu's work on the further development of our satirical literature and its relevance in present.
**Keywords:** Azerbaijani literature, Rufat Zabioglu, satirical poetry of 60s, parody, classic tradition, folk samples

**Article history:** received − 05.10.2022; accepted − 14.10.2022

## Giriş / *Introduction*

60-cı illər Azərbaycan ədəbiyyatında çoxşaxəli və zəngin yaradıcılığı ilə seçilən Rüfət Zəbioğlu lirik, satirik və uşaq şeirlərinin müəllifi kimi tanınan, oxunan və sevilən şairlərimizdən biridir. Şairin müxtəlif mövzularda qələmə aldığı şeirlərinin əsas leytmotivini, ana xəttini vətən məhəbbətinin müqəddəsliyi, bütövlüyü və ülviliyi təşkil edir. Rüfət Zəbioğlunun saf və təmənnasız Azərbaycan sevgisi onun poeziyasının zirvəsində dayanır və sonsuzluğa qədər davam edir. "Vətən son mənzildir, Vətən ilk beşik" – deyən şair öz sələflərinin yolu ilə gedərək bütün varlığı ilə qəlbən bağlı olduğu Azərbaycanı yüksək poetikliklə tərənnüm edir:

*Biz övlad vətənik, o ana vətən.*
*O bizə vətəndir, biz ona vətən.*
*Vətən son mənzildir, vətən ilk beşik,*
*Onsuz nə sevmişik, nə sevilmişik.*

## Əsas hissə / *Main Part*

Rüfət Zəbioğlunun istər lirik, istərsə də satirik səpkidə qələmə aldığı şeirlərinin əsasında məhz şairin vətən sevgisi dayanır. Şairin yaradıcılığında satirik şeirlərin mühüm yer tutmasının başlıca səbəbi vətəndaşı olduğu cəmiyyətdə gördüyü, müşahidə etdiyi çatışmazlıqlar, ədalətsizliklər, qanun pozuntuları və digər nöqsanlarla izah oluna bilər. Əlbəttə, satirik gülüşü yaradan həyatın sosial-mənəvi reallıqlarıdır. Tarixin bütün mərhələlərində sənətkarla mühit, ictimai formasiya arasında münasibətlər, baş verən hadisələrə şair, ədib baxışı özünütənqidi şeirlərdə, satirik üslubda yazılan bədii örnəklərdə daha qabarıq şəkildə göstərmişdir. Tənqidi-satirik şeirlər həmişə xalqın mövqeyindən çıxış etmiş, cəmiyyət həyatının qayğılarından, insanların şərə qarşı münasibətindən doğulmuşdur. Məhz Rüfət Zəbioğlunun satirik poeziyasında da dövrdən, zəmanədən, cəmiyyət hadisələrindən hər cür narazılıq motivlərini görmək mümkündür.

R.Zəbioğlunun rəngarəng yaradıcılığını özündə ehtiva edən, müxtəlif mövzulu şeirlərinin toplandığı "Səslə məni" adlı ilk şeir kitabı 1960-cı ildə çapdan çıxmışdır. Sonralar müəllifinə şöhrət qazandıran "Zirvədən-zirvəyə" (1963), "Yollara duman çöküb"(1970), "İlk beşlik" (1971), "Təbəssüm" (1975), "Sirr, möcüzəm" (1978), "Ayselim" (1983), "Kainatla üz-üzə" (1983) kitabları işıq üzü görmüşdür.

Rüfət Zəbioğlu yaradıcılığında onun müxtəlif mövzuda qələmə aldığı lirik səpkili şeirləri ilə yanaşı, müəllifini oxuculara daha yaxından tanıtdıran və sevdirən satirik şeirləri də mühüm yer tutur. Akademik Bəkir Nəbiyev Rüfət Zəbioğlu yaradıcılığının əsas istiqamətlərindən biri olan və ədəbi fəaliyyətində önəmli yer tutan satirik şeirlərinin özünəməxsus cəhətlərindən bəhs edərək yazır: "... Sovet imperiyasının tüğyan etdiyi bir zamanda fəaliyyət göstərən şair təkcə tərənnüm ruhlu şeirlər ilə kifayətlənə bilmirdi. Bütün ətrafda baş verən hadisələr içərisində çox ciddi qüsurlar, çox naqis adamlar, əliəyrilər, rüşvətxorlar elə baş alıb gedirdilər ki, Rüfət Zəbioğlu bunların yanından elə-belə saymazyana bir şair kimi keçib gedə bilməzdi. Ona görə də bütün bunlardan tüğyana gəlir, öz etiraz sədasını satirik şeirlərində ucaldırdı. Doğrudur,

o zamanlar satirik şeirlər yazmaq, xüsusən də onu çap etdirmək elə də asan deyildi. Buna görə də R.Zəbioğlu bir sıra ciddi müqavimətlərə rast gəlirdi. Lakin o, bütün bunlara baxmayaraq, öz yaradıcılıq bağlılığını qoruyub saxlayırdı, xüsusən rüşvətxorluğu özünün amansız atəş hədəflərindən birinə çevirməyi bacarırdı” [1].

Şairin yaradıcılığındakı satirik və yumoristik məqama diqqət çəkən Qafar Əsgərzadə yazır: “Dərin yumor hissi şairi səciyyələndirən keyfiyyətlərdən idi. Hətta satirik şeirlərində bu yumoru sevməmək mümkün deyil. O, yumorla, kəskin satirik ifadə tərzi ilə mənfi ünsürləri qamçılayırdı. Təbii ki, R.Zəbioğlu bu qəbil əsərlərində M.Ə.Sabir, C.Cabbarlı, S.Rüstəm, M.Rahim ənənələrindən məharətlə istifadə edə bilib” [5]. Şairin “Tiplər tanıyıram”, “Müsibətnamə”, “Sırtığam”, “Əlin cibində olsun”, “Mənim əlimdir”, “Mürdəşir yusun”, “Mənzilbaz”, “Düzələn zad deyiləm” və başqa satirik şeirlərində vətəndaşı olduğu cəmiyyətin çeşid-çeşid obrazlar qalareyasını, mənfi tiplərini, personajlar aləmini görə bilirik. R.Zəbioğlunun pul hərislərinin ifşasına həsr etdiyi “Budu, bu” şeiri xüsusilə maraq doğurur”. Şairin “pulgirin dilindən” səsləndirdiyi “Budu, bu” satirasında haram yolla var-dövlət, sərvət toplayanlar, xalq əmlakını çapıb-talayanlar ifşa edilir, eyni zamanda pulun cəmiyyətdəki pozucu rolu tipin öz danışıq aktı vasitəsilə tənqid hədəfinə çevrilir:

*Tağ atıb pul zoruna cibdə badımcan yetişir,*
*Pul üçün düşmən olur qardaşa qardaş, didişir,*
*Əlimə pul gələcəkdir, qağa, ovcum gicişir,*
*Nə gözəl şeydi bu pul, hər şeyə imkan*
*budu, bu.*
*Nədi pul? Mülk, maşın, təzə kəsilmiş əl əti,*
*Sənə pul göstərərəm Yalta bilərsən Ələti,*
*Pula qeyrət deyənin zərrəcə yoxdur qələti.*

Professor Xalid Əlimirzəyev yazır: “Bədii gülüş satira və yumor kimi növlərə bölünür. Bunlar tənqidin xarakterinə və mahiyyətinə görə bir-birindən ayrılsalar da, hər ikisi insanların intibahına, mənəvi təkamülünə xidmət edən vahid estetik mərama xidmət edir. Satira ifşaçı, tənqidi gülüşün kəskin və yüksək növüdür. Onun kinayə, sarkazm (öldürücü gülüş), məsxərə, rişxənd, ələsalma və s. kimi müxtəlif formaları vardır. Sənətkarlar inkişafa, tərəqqiyə mane olan cəhalətə, zehni-mənəvi geriliyə rəvac verən ictimai bəlaları, əxlaqi qəbahətləri tənqid edərkən satiradan, onun yüksək forması sayılan ifşaçı gülüşdən daha çox istifadə edirlər” [3, s.375]. Bu mənada Rüfət Zəbioğlu “Budu, bu” satirasının əsas tənqid hədəfinin xarakterini açarkən məhz “ifşaçı gülüşdən” məharətlə yararlanmışdır. Satirada şairin mənfi personajı-mənsəbpərəst ata obrazı cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərini itirən, özünün yanlış tərbiyə üsulu və lazımsız tövsiyələri ilə övladını və onun timsalında gənc nəslin beynini korlayan satirik bir tip kimi ikrah hissi doğurur:

*Nə gərək gündə gedib çirkli dənizdə üzəsən,*
*Pul içində üz, oğul, üzməli ümman budu, bu.*
*Hər işin əvvəli-pul, ortası-puldur, sonu - pul.*
*İtirib siqlətini yüz qram eylər tonu pul,*
*Nə sağalmaz mərəzin olsa sağaldar onu pul,*
*Pula aç dərdini sən, dərdinə loğman budu, bu.*

Rüfət Zəbioğlunun poeziyası öz gücünü zəngin və çoxəsrlik klassik Şərq şeirindən və Azərbaycan xalqının minilliklər boyu yaratdığı və əsrdən-əsrə, nəsildən-nəslə ötürərək çağdaş dövrümüzə çatdırdığı bulaq kimi çağlayan, saf, təmiz, büllur kimi dupduru folklor örnəklərindən almışdır. Bu mənada şairin “Budu, bu” satirası diqqəti cəlb edir. Satirada şair klassik şeirlərimizdə çox işlənən izafət tərkiblərindən istifadə etməklə obrazın mənfi çalarla yüklənmiş portretini və mənəvi eybəcərliyini real cizgilərlə açıb göstərir:

*Adı məşhuri-cahan, afəti-dövran budu, bu,*
*Nə ki məşhuri-cahan, ruh, bədən, can budu, bu,*
*Mənə canımdan əziz sevgili canan budu, bu!*

Pulu canından da çox sevən satirik tipin etirafları onun mənəvi cılızlığını, daxili puçluğunu, qeyri-insani duyğularla yaşadığını göstərən, nifrət dolu varlığını ifşa edən xoşagəlməz məqamlardır.

Rüfət Zəbioğlu Füzuli yaradıcılığından bir fon kimi yararlanaraq, şairin məşhur “Məndə Məcnundan füzun aşiqlik istedadı var” misrası ilə başlanan qəzəlinə parodiya şəkilndə qələmə aldığı “Diplomum” satirasında elmsiz alimin

saxta yollarla, rüşvətlə diplom almasını sarkastik bir şəkildə tənqid hədəfinə çevirir:

*Məndə alimdən füzun alverçi istedadı var,*
*İxtirasız, kəşfsiz alimliyin öz dadı var.*
*Doğrudan da hər kəsin dünyada bir ustadı var,*
*Ruhuna ustadımın yüz dəfə rəhmət, diplomum,*
*Elmsiz alim! Qiyamətdir, qiyamət, diplomum.*

Şeirdə Azərbaycan elminə, alim adına xələl gətirən, rüşvətlə aldığı diplomla istədiyi mənsəbə, şöhrətə, var-dövlətə çatan yalançı, başabəla və üzdəniraq "alimlər" tənqid olunur:

*Xərc çəkib aldım səni, verdim fəqət vicdanımı,*
*Gəzdirirsən "Volqa"da min naz ilə cananımı,*
*Elmdən zəhləm gedirdi, rahat etdim canımı,*
*Ol səlamət ki, olum mən də səlamət, diplomum,*
*Elmsiz alim! Qiyamətdir, qiyamət, diplomum!*

Şairin "Dayımdır mənim" satirasında əsl elm adamı ilə yalançı alimlər qarşılaşdırılır. Haram yolla çoxlu pula sahib olan mənsəbpərəstlərlə halal qazanc sahibləri – müəllimlər, alimlər paralellər əsasında müqayisə edilir. Bu mövzulu satiralarda öz sərvəti ilə öyünənlər cəmiyyətin düşünən beyni olan alimə, müəllimə ikrah hissilə, yuxarıdan aşağıya baxır. Şair bu qeyri-tənasüblüyü, paradoksallığı mənəviyyatı kasad olan antipodun dilindən səsləndirərək onu tənqid hədəfinə çevirir:

*Nənəm molla olub, dədəm azançı,*
*Dolsun yalançının qarnına sancı.*
*Müəllim qonşum var, aylıq qazancı*
*Gündəlik qismətim, payımdır mənim.*

*Girmərəm altına hər ağır yükün,*
*Qırxaram başını, cücərməz tükün.*
*Alim kastyumumdan geymişdi o gün,*
*Yazıq elə bilib tayımdır mənim.*

Şair cəmiyyətdə ziyalıya bu cür həqiranə, sosial baxışın olduqca qüsurlu, bağışlanmaz bir tendensiya olduğunu çox böyük narahatlıqla yazıb göstərir və insanları belə mənfi hallardan ibrət götürməyə, nəticə çıxarmağa səsləyir. Əsərdə satirik obraz zahirən sanki ona aid olmayana gülsə də, daxilən bu situasiyada özünü görmüş, cəmiyyətdə tutduğu eybəcər mövqeyi, bir insan olaraq eybəcər siması satira aynasında tipin özünü nümayiş etdirmişdir". Məlumdur ki, satira müəllifinin satiraya tutulan hədəfdən çox yüksəkdə durmasını tələb edir. Tənqidi gülüş o zaman müvəffəqiyyətlə səslənir ki, gülən adam mənəvi cəhətdən yüksəkdə, gülüş hədəfi isə mənəvi cəhətdən alçaq adamlar olurlar" [4, s.146].

Şairin "Qalmışam", "Dayımdır mənim", "Sən öl", "Dağılıb xanimanım", "Səndə nə var?", "Ona de", "Nə sözün var", "Düşə bilmirəm", "Başın haqqı", "Soruş" kimi satirik şeirlərində əliəyrilər, tamahkarlar, rüşvətxorlar, vəzifəpərəstlər, yaltaqlar, riyakarlar və başqa mənfi tiplər kəskin satirik ittihamlarla üz-üzə qalır:

*Bağına çəpər çəkib:*
*"Yaratdım, qurdum" deyən,*
*Ailəsinə "xalqım",*
*Evinə: "yurdum" deyən,*
*İftixarla: dağıtdım",*
*Fəxr ilə "qırdım" deyən,*
*Qohumuna, dostuna:*
*"Öz itim-qurdum" deyən*
*Tiplər tanıyıram mən.*

Rüfət Zəbioğlunun poeziyası öz rişəsini, şəhdini klassik ədəbiyyatımızla yanaşı, həm də zəngin folklor örnəklərindən almışdır. Şair xalq ədəbiyyatının lirik janrlarından sənətkarlıqla yararlanaraq satirik parodiyalar yaratmışdır. Xüsusilə də, şairin xalq mahnılarının motivlərindən istifadə yolu ilə yazdığı, yeni forma, məzmun və ideya ilə zənginləşdirdiyi satiraları cəmiyyətdəki neqativ halların ifşasında mühüm rol oynayır. Bu baxımdan şairin "Bəri bax" satirası daha çox diqqəti cəlb edir. Şairin xalq mahnısının oynaq ritmindən bəhrələnərək şeirin vəzn və qafiyə düzülüşündə yaratdığı sistemlilik, ardıcıllıq satiraya dinamiklik gətirmişdir :

*Karxanadan daş gəlir, ay bəri bax, bəri bax,*
*Daş mənə daş-baş gəlir, ay bəri bax, bəri bax,*
*Yoxlanılır işlərim, ay bəri bax, bəri bax,*
*İşim mənə yaş gəlir, ay bəri bax, bəri bax.*

Şair öz var-dövləti, haram yolla əldə etdiyi pullarının çoxluğu ilə öyünən antipodun mənfi xarakterini, satirik portretini məharətlə yaradır. Sabir satiralarının forma və struktur özəlliyindən, ifadə tərzindən və təqdimetmə üsulundan istifadə yolu ilə tipin öz dili ilə özünü ifşa metodunu seçir:

*Pullarımın yox sanı, ay bəri bax, bəri bax,*
*Beş yüzə vur doxsanı, ay bəri bax, bəri bax,*
*Kimdə bu məbləğ ola, ay bəri bax, bəri bax,*
*Xoş görünər nöqsanı, ay bəri bax, bəri bax.*

Şair satiranı ibrətamiz bir sonluqla tamamlayır. Xalqın sərvətini talayan, öz nəfsinin qurbanına çevrilərək haqq-ədalət qarşısında dayanan bu tamahkar, əliəyri, pulgir, xəbis bir varlıq törətdiyi əməllərin cəzasını çəkir və ağır ittihamla üz-üzə qalır:

*Tutulmuşam, ağlama, ay bəri bax,bəri bax.*
*Qonşudadır bağlama, ay bəri bax, bəri bax,*
*Apar atangildə qoy, ay bəri bax, bəri bax,*
*Qonşuya bel bağlama, ay bəri bax, bəri bax.*

Şairin "Bəri bax" satirasının "qəhrəmanı"nın aqibəti necə olmuşdursa, "Ay Lələ" şeirinin də tənqid hədəfinin taleyi həmin dolanbaclardan keçmişdir. Dəmir barmaqlıqlar arasında çürüyən insan öz tamahkarlığının, rüşvətxorluğunun acı nəticələrini yaşayır. Ağrılı həyat yaşayan personajın aqibəti ikinci şəxsin dilindən təəssüf hissilə, yana-yana izhar olunur:

*Vəfasızmış bu dünyanın sərvəti,*
*Yazıb getdin alacağın rüşvəti,*
*Gecə keçər, hamı yatar, xəlvəti*
*Dəftərini varaqlaram, ay Lələ,*
*Sən ağlama, mən ağlaram, ay Lələ!*

Şairin "Nizamiyə nəzirə" epiqrafı ilə yazdığı "Sənsiz" satirası şairin eyniadlı qəzəlinə nəzirə şəklində qələmə alınmışdır. Nizami yaradıcılığından bir fon kimi yararlanan müəllif bu satirasında da rüşvətxorluğun cəmiyyətdə dərin kök saldığını, böyük fəlakətlərə yol açdığını satirik obrazın öz dili ilə açıb göstərir:

*"Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz",*
*Başıma gözləmədən gəldi müsibət sənsiz.*
*Qızışıb rüşvət alan yerdə tutuldum, getdim,*
*Almayaydım onu kaş sağ-səlamət sənsiz.*

Rüfət Zəbioğlu satirik yaradıcılığında klassiklərin zəngin irsinə dönə-dönə müraciət edir, onların tükənməz söz xəzinəsindən yerli-yerində, məqamında bəhrələnir, dil-üslub, ədəbi priyom və bədii üslubundan yaradıcı şəkildə istifadə edir, bəzən isə onların adını da şeirdə hörmətlə xatırlayır. Bu baxımdan şairin "Düzələn-zad deyiləm" satirası Sabir satiralarının tərzi ilə uyarlıq təşkil edir:

*Mənə yastıqdı, döşəkdi, mənə yorğandı cibim,*
*Köməyimdi o mənim, cürətim, arxamdı cibim,*
*Böyüyüm, başbilənim, lap belə darğamdı cibim,*
*Bu əqidəmdə əsirəm, qulam, azad deyiləm,*
*Özünü yorma, kişi, mən düzələn-zad deyiləm.*

*Qızışıb tez qələm axtarma, dayan, eylə səbir.*
*Danışan şəxs gərəkdir ki, qulaq da asa bir,*
*Babama şeir qoşub Mirzə Ələkbər Sabir,*
*Sənə zatım ki tanışdır, deməli, yad deyiləm,*
*Özünü yorma, kişi, mən düzələn-zad deyiləm.*

Şairin "Səndə nə var? satirası" Sabirin məşhur "Əkinçi" satirasındakı "Öyrəşməmisən ət-yağə dünyadə, əkinçi" misrasının motivi ilə ekvivalentlik yaradır. Mülkədarın əkinçiyə həqiranə münasibəti bu satira üçün də xarakterikdir:

*Neçə növ gündə ləziz, dadlı təamlar yeyirəm,*
*Yediyimdən dada bilsən qudurarsan deyirəm,*
*Ölü olsam da, sən öl, kastumu cüt-cüt geyirəm,*
*Qapıma müftə gəlir xarici, importnı tavar,*
*A yoluğ, məndə bu vardır, de görüm, səndə nə var?*

Rüfət Zəbioğlunun yaradıcılığında kiçikhəcmli, lakonok satirik şeirlərə də rast gəlirik. Bu tipli şeirlər yığcam olsa da, məna tutumu, tərbiyəvi əhəmiyyəti və didaktik mahiyyətinə görə diqqəti cəlb edir:

*Müəllim xəbər aldı:*
*- Kim deyər cinas nədi?*
*Bir nəfər dəm tələbə*
*Cinasa misal dedi:*

*- Cüt vurmuşuq: mən, dədəm,*
*O da dəmdir, mən də dəm.*

Şeirin məzmunundan aydın görünür ki, şair cəmiyyətdə və ailədə itirilən ülvi hisslərə, mənəvi-əxlaqi dəyərlərə bir vətəndaş yanğısı ilə yanaşır. Bütün bunlar şairi dərindən düşündürür və bu problemlər onun yaradıcılığında önəmli yer tutur. Bu satirik ittihamların arxasında şairin insanları daxili saflaşmaya, mənəvi ucalığa doğru istiqamətləndirən harayını, çağırış nidasını görürük.

Professor Bədirxan Əhmədov yazır: "Satiranın "yalançı bir növ kimi" qəbul olunduğu vaxtlar da olmuşdur. Satira həm də pafosdur. Bu pafos hər hansı bir əsərin süjet,kompozisiya və məzmununu təşkil edirsə, hökmən onun janrını da müəyyənləşdirmiş olur. Satira həm də müəllifin dünyagörüşünün təzahür forması, həyatı dərketmə üsul və vasitələrindən biri kimi də öz təsdiqini tapır. Satira bütün zamanların formasıdır" [2, s.32]. Doğrudan da, insan təfəkkürü nə qədər böyük təkamül yolu keçsə də, cəmiyyətdə köklü dəyişikliklər baş versə də, hələ də arxaik düşüncələrlə yaşayan və köhnə stereotiplərdən qurtarmayan insanlar qalmaqdadır. Buna görə də satira məhz bu günümüzün də forması kimi yaşamaqdadır. Məhz Rüfət Zəbioğlu satiralarının aktuallığı da onun çağdaş dövrlə yaxından səsləşməsindədir.

Ümumiyyətlə, Rüfət Zəbioğlu satiralarının mövzu və əhatə dairəsi olduqca genişdir. İctimai-siyasi, sosial, ədəbi-mədəni problemlərdən başlayaraq ailə-məişət məsələlərinədək bir çox problemləri öz yaradıcılıq orbitinə daxil edən şair onları fikir süzgəcindən keçirir, poetik forma və məzmun verərək oxucuların ixtiyarına buraxır. Beləliklə də, sənətkar mühüm və həllini gözləyən problemləri ictimailəşdirməyə müvəffəq olur. Şairin bu qəbildən olan kiçik formalı satiralarından biri də "Əlin cibində olsun" şeiridir. Satirada mövcud cəmiyyətdə hökm sürən rüşvətxorluq, əliəyrilik kimi mənfi halların ifşası ön plana çəkilir:

*İş istəyib, demişəm:*
*- Əlin cibində olsun...*
*Gödək sözü anlamır*
*Bu uzun oğlu uzun.*
*Gedir əli cibində,*
*Gəlir əli cibində...*
*Nə şapalaq yeri var*
*Qulağının dibində!*

Tipin dilindən səsləndirilən, satira və yumorun sintezindən yaranan bu ətrafda gözləntiləri puça çıxan, pul ehtirası ilə alışıb-yanan, iş müqabilində rüşvət uman mənfi personajın monoloqu yüksək sənətkarlıqla yaradılır və onun tamahının, nəfsinin quluna çevrildiyi açıq-aşkar görünür. Əlbəttə, sovetlər dönəmində cəmiyyətdə adi hala çevrilən bu cür problemlərin qabardılması və ədəbiyyata gətirilməsi sənətkardan böyük cəsarət tələb edirdi.

Şairin yaradıcılığında cəmiyyətin aparıcı və idarəedici güclərindən biri olan qadınların fəaliyyətini, ailədəki rolunu əks etdirən satiralara da yer verilmişdir. Əgər Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əli Razi və başqa mollanəsrəddinçilərin yaradıcılığında qadınların hüquqsuzluğundan, cəmiyyətdəki fəaliyyətsizliyindən, azadlığı əlindən alınmış zəif bir məxluq olmasından söhbət açılırsa, Rüfət Zəbioğlunun satiralarında klassiklərin təqdimatından fərqli bir yanaşmanın şahidi oluruq. Şairin "Müsibətnamə" şeirində sarkastik bir şəkildə təsvirini verdiyi qadın kişinin həyatını məhv edən, ailədə hegemon bir qüvvəyə çevrilən, "gününü göy əskiyə bükən" mənfi personaj kimi ümumiləşdirilir:

*Əriyib olmuşam quru bir qəfəs,*
*Hirslənsə, qorxudan çəkmirəm nəfəs,*
*Gah əli iş görür dilindən əvəz,*
*Gah dili işləyir əli yerinə.*

*Səhərim savaşdır, axşamım savaş,*
*Zəliləm arvadın əlində, qardaş,*
*Mənə rəhmi gəlib gəbərəydi kaş,*
*Verəydim "üçünü" "ili" yerinə.*

## Nəticə / *Conclusion*

Şair satirada kişinin dilindən səsləndirdiyi bu sərt və kəskin ittihamlarla qadına qarşı qəzəbinin son həddə, kulminasiyaya çatmasını qarğış faktorunda gerçəkləşdirə bilir. Ailə-məişət

fonunda qələmə alınmış satiranın əsas məqsəd və məramında bu cür neqativ halların bütövlükdə cəmiyyətə sirayət etməməsi fikri dayanır. Bu məqsədlə də şair məsələni qloballaşdırır və oxucuları nəticə çıxarmağa yönləndirir.

Azərbaycan ədəbiyyatının 60-cı illər ədəbi nəslinə mənsub olan Rüfət Zəbioğlu XX əsr satirik poeziyasında Mirzə Ələkbər Sabir və "Molla Nəsrəddin "ədəbi məktəbinin layiqli davamçılarından biri kimi ədəbiyyat tariximizə daxil olub. Şairin orijinal dəsti-xətti, yazı manerası, yaratdığı çoxsaylı satiraları çağdaş dövrdə də öz aktuallığını və müasirliyini qoruyub saxlayır.

**Ədəbiyyat / *References***

1. Əhmədov B. Azərbaycan satirasının inkişaf problemləri. Bakı: Elm, 2009.
2. Əlimirzəyev X. Bədii ədəbiyyatda gülüş. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: Nurlan, 2008.
3. Əsgərzadə Q. Dünya mülkünü işıqda görən sənətkar. Modern.az. https://modern.az › news.
4. Mir Cəlal Paşayev.Azərbaycanda ədəbi məktəblər. Bakı: Ziya-Nurlan, 2004.
5. Nəbiyev B. Modern.az. https://modern.az › news.
6. Zəbioğlu R. http://www.3333047.az › zebi.

## Сатирическое творчество Руфата Забиоглы

**Эльмира Бабаева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: elmirababayeva0791@gmail.com

**Резюме.** В статье к исследованию привлечена сатирическая поэзия представителя поколения шестидесятых в азербайджанской литературе Руфата Забиоглы. Сатирический жанр, пройдя большой путь эволюции в нашей литературе, начиная с М.А.Сабира и в целом с творчества молланасреддинцев, завоевал в начале XX века совершенно новый статус. Несомненно, сатирическое творчество литературной школы «Молла Насреддин» своим необычным стилем, способом выражения, новизной формы и содержания оказало сильное влияние на последующий период сатирической поэзии и способствовало развитию сатирического жанра в нашей литературе. Среди пришедших в литературу в 60-е годы новых сил Руфат Забиоглы своим своеобразным пером и оригинальным стилем завоевал особое место в нашей сатирической поэзии. В богатом и многогранном творчестве Руфата Забиоглы, помимо лирических стихов, значительное место занимают сатирические стихи на разные темы, в которых обличаются внутренние и нравственные пороки в обществе, взяточничество, казнокрадство, алчность, корыстолюбие, честолюбие, тщеславие, несправедливость, равнодушие. В исследовании значительное место отводится анализу этих вопросов.
Помимо этого, в центре внимания статьи рассматривается влияние творчества Руфата Забиоглы на дальнейшее развитие нашей сатирической литературы и его актуальность и в нашей современности.
**Ключевые слова:** азербайджанская литература, Руфат Забиоглы, сатирическая поэзия 60-х годов, пародия, классическая традиция, фольклорные образцы